

# «Meyvə qurularının və meyvə pürelərinin istehsalı» üzrə

## Daxili Bazar Araşdırması

Bakı -2021

«AZƏRBAYCAN RESPUBLİKASININ KİÇİK VƏ ORTA BİZNESİN İNKİŞAFI AGENTLİYİ» və «ALLIANCE CONSULTING GROUP AZERBAIJAN» arasında imzalanmış, 18 May 2021-ci il tarixli, BA 11/21 saylı müqaviləyə müvafiq olaraq, biz yuxarda qeyd olunan müqavilədə müəyyən edilmiş, Sifarişçinin təqdim etdiyi bazar araşdırmasının hazırlanması ilə bağlı **əvvəlcədən razılaşdırılmış prosedurları** yerinə yetirmişik. Görülən işlərin nəticəsi olaraq, Sifarişçi üçün **Daxili Bazar Araşdırması** hesabatını hazırlamışıq.

Daxili Bazar Araşdırması hesabatı 05 Avqust 2021-ci il tarixinə hazırlanmışdır.

**Hesabatın hazırlanmasında məqsəd məhsulların istehsalı üzrə daxili bazar araşdırması ilə bağlı investisiya və idarəetmə qərarlarının verilməsində KOB subyektlərinə dəstək olmaqdır.**



**AZƏRBAYCAN RESPUBLİKASININ KİÇİK VƏ ORTA BİZNESİN İNKİŞAFI AGENTLİYİ**

Nərimanov rayonu, Mustafa Kamal Atatürk pr., 134, Bakı, Azərbaycan

**ALLIANCE CONSULTING GROUP AZERBAIJAN**

Səbail rayonu, Neftçilər prospekti, ev 129, mənzil 129, Bakı, Azərbaycan



# Mündəricat


- **Araşdırma metodları**
- **Geniş yayılan məhsullar**
- **Meyvə qurusu və püresi istehsalı sahəsində dövlət dəstəyi tədbirləri, sertifikatlaşma və icazələrin verilməsi**
- **Meyvə qurusu və püresi istehsalı üçün xammal məhsullarının istehsalı ilə məşğul olan rayonlar**
- **Daxili bazarın həcmi – istehsal, idxal və istehlak**
- **Rəqabət mühiti - əsas bazar iştirakçıları və məhsulun bazarda çeşidlənməsi**
- **Qiymət təhlilləri**



# Mündəricat (ardı)

- Məhsulun hədəf kütləsi
- Məhsulun mümkün satış kanalları
- Porterin 5 gücü təhlili
- GZİT təhlillər
- Aparılmış sorğuların nəticələri
- Meyvə qurusu və püresi istehsalının dəyər zənciri
- Meyvə qurusu istehsalı üçün lazım olan avadanlıqlar
- Ümumi tövsiyələr



# Araşdırma metodları

Masaüstü araşdırma - müxtəlif mənbələrdən əldə edilmiş statistik və analitik informasiyalar əsasında

İstehsalçılar arasında üzbəüz (F2F) sorğular

Sahə üzrə mütəxəssislərlə görüşlər və müsahibələr (intervyu)

# Geniş yayılan məhsullar (meyvə qurusu)








- Alma qurusu
- Xurma qurusu
- Üzüm qurusu
- Ərik qurusu
- Albuxara qurusu
- Əncir qurusu
- Gavalı qurusu
- Şaftalı qurusu
- Tut qurusu

# Geniş yayılan məhsullar (meyvə püresi)











Alma püresi

Çiyələk püresi

Ərik püresi

Əncir püresi

Gavalı püresi

Moruq püresi

Qarışıq giləmeyvə püresi

Şaftalı püresi

# Quru meyvə və püresi istehsalı sahəsində dövlət dəstəyi tədbirləri, sertifikatlaşma və icazələrin verilməsi

- İnvestiya təşviqi sənədinin alınması quru meyvə məhsulları istehsalçıları üçün bir sıra vergi və gömrük rüsumları üzrə **güzəştlərin tətbiqini nəzərdə tutur.**

- Sahibkarlığın İnkişafı Fondu və Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən quru meyvə istehsalı ilə məşğul olan müəssisələrə **güzəştli kreditlər verilir.**

- Qida məhsulları istehsalı sahəsində fəaliyyət göstərən subyektlərin **qida təhlükəsizliyi qeydiyyatına alınmasına** ehtiyac vardır. Bunun üçün birdəfəlik **150 AZN ödəməklə Qida Təhlükəsizliyi Agentliyinin** dövlət reysterində məhsul istehsalçıları qeydiyyata alınır.

- Quru meyvə və meyvə püresi istehsalı sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektləri üçün hər hansı bir **lisenziya tələb edilmir.**



# Meyvə emalı üçün xammalın istehsalı ilə məşğul olan rayonlar

- Xəritədən göründüyü kimi demək olar ki, bütün rayonlar meyvə istehsalı ilə məşğul olur. Bu isə o deməkdir ki, **meyvə qurusu və püresi istehsalı üçün ölkədə xammal bazası** mövcuddur.




*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*

# Daxili bazarın həcmi - istehsal, idxal və istehlak

SAIR QURUDULMUŞ MEYVƏLƏR (TON)




- *Dövlət Statistika Komitəsinin verdiyi məlumatlara əsasən quru meyvə istehsalı ilə bağlı bütün statistik informasiyalar məhz "sair quru meyvələr" kimi qruplaşdırılmışdır.*



- **Quru meyvə istehsalı son 4 il ərzində** yüksək artım tempi ilə inkişaf etməkdədir və 2020-ci ildə 2017-ci illə müqayisədə **9,6 dəfə** artmışdır.

- Statistik məlumatlar bazasında **meyvə və tərəvəz konservlərinin istehsalı** ilə bağlı məlumatlar və quru meyvələrlə bağlı ümumi statistika da mövcuddur ki, bu da meyvə qurusu və püresi istehsalını da özündə ehtiva edir.

- 2020-ci ildə **meyvə və tərəvəz konservləri istehsalı 186.7 min ton** olmuşdur ki, bu da **2015-ci illə müqayisədə 26% artım deməkdir**.

- Ümumilikdə statistik məlumatlar onu deməyə əsas verir ki, meyvə emalı sahəsində **istehsal artan templə davam edir.**

# Daxili bazarın həcmi - istehsal, idxal və istehlak

- 2020-ci ildə meyvə qurusu məhsulları üzrə idxal

| HS kodu | Məhsulun adı | Miqdarı (ton) | İdxalın dəyəri (milyon ABŞ dolları) | 1 kg üçün orta qiymət (ABŞ dolları) |
|---|---|---|---|---|
| 80620 | Qurudulmuş üzüm | 3027.9 | 5.53 | 1.8 |
| 81310 | Qurudulmuş ərik | 1237.8 | 2.50 | 2.0 |
| 81320 | Qurudulmuş qara gavalı | 370.3 | 0.69 | 1.9 |
| 81330 | Qurudulmuş alma | 44.7 | 0.10 | 2.2 |
| 81340 | Qurudulmuş digər meyvələr (armud, şaftalı, nektarin və s.) | 1316.6 | 2.19 | 1.7 |

*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*



# Daxili bazarın həcmi - istehsal, idxal və istehlak

- 2020-ci ildə meyvə püresi məhsulları üzrə idxal

| HS kodu | Məhsulun adı | Miqdarı (kg) | İdxalın dəyəri (min ABŞ dolları) | 1 kg üçün orta qiymət (ABŞ dolları) |
|---|---|---|---|---|
| 200710 | Mürəbbələr, meyvə jeleləri, marmeladlar, meyvə və ya qoz püresi və meyvə və ya qoz pastaları; homogenləşdirilmiş, bişmiş preparatlar, əlavə edilmiş şəkər və ya digər şirinləşdirici maddələr olan və ya olmayan | 158546 | 292.5 | 1.8 |
| 200791 | Mürəbbə, jele, marmelad, püre və pastalar; sitrus meyvələrindən, bişmiş preparatlar (homogenləşdirilmişlər istisna olmaqla), şəkər və ya digər şirinləşdirici maddələr əlavə edilmiş və ya olmayan | 10885 | 23.2 | 2.1 |
| 200799 | Digər yerlərdə nəzərə alınmayan digər mürəbbələr, meyvə jeleləri, marmeladlar, püreler və pastalar; bişmiş preparatlar (homogenləşdirilmişlər istisna olmaqla), şəkər və ya digər şirinləşdirici maddələr əlavə edilmiş və ya olmayan | 1027810 | 1683.3 | 1.6 |

*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*



# Daxili bazarın həcmi - istehsal, idxal və istehlak

- Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən ölkədə **adambaşına il ərzində meyvə istehlakı ümumilikdə 45-50 kq-dır.**

- Adambaşına illik **quru meyvə istehlakı**: **ərik qurusu üzrə 0.6 kq, üzüm qurusu üzrə 0.7 kq, gavalı qurusu üzrə 0.4 kq təşkil edir.**

- Statistik məlumatlar bazasında **meyvə və tərəvəz konservlərinin adambaşına istehlakı** barəsində məlumat da mövcuddur ki, buraya da meyvə qurusu və püresi aid edilir.

- Statistik məlumatlara görə **meyvə və tərəvəz konservləri** üzrə ölkədə illik istehlak **17.1 kq təşkil edir**.



# Daxili bazarın həcmi – istehsal, idxal və istehlak




Bir sıra quru meyvə növləri ölkəyə əsasən xaricdən gətirilir ki, buna da çoxsaylı faktorlar təsir edir. Məsələn, xurma üzrə ölkədə xammal olmadığı üçün bu məhsul demək olar ki, tamamilə idxal hesabına ödənilir.




Ölkədə kifayət qədər xammal bazası olmasına baxmayaraq, korelyok, ərik kimi quru meyvələr də xaricdən gətirilir, hansı ki, bu məhsulların istehsalı üzrə Azərbaycan dünya miqyasında öncül mövqelərdədir. Məsələn, xurma ixracı üzrə dünya bazar payı 20 faizdən yüksək olmaqla, dünya miqyasında İspaniyadan sonra ikincidir.




Bir sıra quru meyvə növlərinə tələbat əsasən yerli istehsal hesabına ödənilir. Digər tərəfdən isə meyvə püresi istehsalı, xüsusi ilə də uşaqlar üçün meyvə püreləri əsasən idxal edilir.

**Üzüm qurusu** üzrə 2020-ci ildə Azərbaycana **Özbəkistan** və **İrandan 5,4 milyon ABŞ dolları** dəyərində idxal olmuşdur.

**Qurudulmuş ərik** üzrə 2020-ci ildə Azərbaycana **Türkiyə, Özbəkistan, İran** və **Qırğızıstandan 2,5 milyon ABŞ dolları** dəyərində idxal olmuşdur.

**Qurudulmuş qara gavalı** üzrə 2020-ci ildə Azərbaycana **İran, Çili, Özbəkistan, Moldova, Argentina** və **Türkiyədən 670 min ABŞ dolları** dəyərində idxal olmuşdur.

**Qurudulmuş alma** üzrə 2020-ci ildə Azərbaycana **Çin, Türkiyə, İran** və **digər ölkələrdən 97 min ABŞ dolları** dəyərində idxal olmuşdur.

**Qurudulmuş digər meyvələr** (armud, şaftalı, nektarin və s.) üzrə 2020-ci ildə Azərbaycana **Tailand, İran, Özbəkistan, Çin, Rusiya, Suriya, Türkiyə** və **digər ölkələrdən 2,1 milyon ABŞ dolları** dəyərində idxal olmuşdur.



# Rəqabət mühiti - əsas bazar iştirakçıları və məhsulun bazarda çeşidlənməsi

- Hazırda meyvə emalı sahəsində fəaliyyət göstərən aparıcı müəssisə və şirkətlərin sayı 15-ə yaxındır.
- Baxmayaraq ki, bu müəssisələr arasında meyvə qurusu istehsalı ilə məşğul olanlar vardır, meyvə püresi (xüsusi ilə də uşaqlar üçün pürelər) istehsal edənlər mövcud deyil.
- Meyvə qurusu və püresi istehsalı sahəsində əsas bazar iştirakçıları aşağıdakılardır:



- Öz dad, Safqida, Qubaekoaqrar, Dadlı Naxçıvan məhsulları və digər nisbətən kiçik və orta ölçülü istehsalçılar da bazarda müəyyən paya sahibdirlər.



# Rəqabət mühiti - əsas bazar iştirakçıları və məhsulun bazarda çeşidlənməsi

- “ABAD” - Ailə Biznesinə Asan Dəstək publik hüquqi şəxs Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 23 sentyabr 2016-cı il tarixli Fərmanı ilə Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN xidmət) tabeliyində yaradılıb.

- Hazırda ABAD bir sıra qida məhsulları istehsalının təşkili, o cümlədən alma qurusunun istehsalı ilə məşğul olur.




*Alma qurusu 4.75 AZN (300q)*



# Rəqabət mühiti - əsas bazar iştirakçıları və məhsulun bazarda çeşidlənməsi

- “Qafqaz Konserv Zavodu” MMC 12 sentyabr 2003-cü il tarixində fəaliyyətə başlamışdır.
- Bizim Tarla hər bir azərbaycanlının qürurla “yerli məhsul” deyə istehlak edə biləcəyi bir markadır.
- Ölkədə meyvə emalı ilə məşğul olmaqla yanaşı bazarda önəmli paya malikdir.

*Ərik – 1.65 AZN (350q)*




*Çiyələk – 1.25 AZN (175q)*




*Alma – 3.05 AZN (1.25kq)*




Bizim Tarla®



# Rəqabət mühiti - əsas bazar iştirakçıları və məhsulun bazarda çeşidlənməsi

- 2017-ci ildə “Balxurma” MMC Balakən rayonunun Katex kəndində fəaliyyətə başlamışdır.

- Əsas fəaliyyət sahəsi regionda istehsal edilən meyvə və giləmeyvələrin qurudularaq brendləşdirilib istehlakçılara təqdim edilməsidir.

NATURAL FRUIT COLLECTION
BALKHOORMA

*Xurma qurusu - 5.1 AZN (100q)*



*Xurma qurusu - 10.5 AZN (300q)*



*Xurma qurusu - 2.21 AZN (100q)*





# Rəqabət mühiti - əsas bazar iştirakçıları və məhsulun bazarda çeşidlənməsi

- “Qubaekoaqrar” MMC 2018-ci ildən kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olur.
- Şimal regionundan olan fermerlərdən mövsümi meyvələri yığmaqla meyvə quruları ve pürələri istehsal edir.

*Alma qurusu - 1.54 AZN (120q)*




*Ərik qurusu - 1.86 AZN (120q)*





# Rəqabət mühiti - əsas bazar iştirakçıları və məhsulun bazarda çeşidlənməsi

- Meyvə qurusu bazarının əsas iştirakçılarından Gavali və Xurcun mağazalarını göstərmək olar.










# Rəqabət mühiti - əsas bazar iştirakçıları və məhsulun bazarda çeşidlənməsi

- Gavali və Xurcun mağazalar şəbəkələri regionlarda keyfiyyətli meyvə quruları istehsal edən kiçik və orta ölçülü istehsalçılardan məhsulları toplayıb “Gavali” brendi ilə istehlakçılara təqdim edirlər.





# Meyvə qurusu üzrə qiymət təhlilləri

- Qiymət təhlilləri seçilmiş satış məntəqələrində və eləcə də onlayn satış platformalarında aparılmışdır.

| Satış şəbəkəsi | 1 kq ərik qurusu (AZN) | 1 kq xurma qurusu (AZN) | 1 kq gavalı qurusu (AZN) | 1 kq alma qurusu (AZN) |
|---|---|---|---|---|
| mybostan.com | 10 | 7 | 10 | 8 |
| bazarstrore | 11.96 | 18.36 | 14 | 10.4 |
| bizimkendimiz.com | 11.5 | 17 | 13.5 | 8 |
| biostore.com | 10 | 10 | 12 | 14 |
| xurcun | 14 | - | 80* | 40* |
| gavalı | 16 | - | 60* | 50* |
| bravo | 10.4 | 8.8 | 10 | 14.85 |

*Premium məhsullar

# Meyvə püresi üzrə qiymət təhlilləri

Meyvə-tərəvəzli püre keçi qaymağı ilə, 6 aydan böyük uşaqlar üçün, 100 qr, 4.85 AZN




Gülkələm püre 80 qr, 2,35 AZN




Kök püresi 80 qr, 2,35 AZN




Armud püresi, 80qr, 2,15 AZN




Alma çiyələk püre, 68 qr, 0.85 AZN




Püre alma-şaftalı, 115 qr, 1,55 AZN




Balqabaq püre, 80 qr, 2,15 AZN




Tərəvəz püresi, yer kökü, 80 qr, 2,09 AZN




Püre alma-banan, 115 qr, 1,55 AZN




Alma-armud-banan-şaftalı püresi, 115 qr, 1,55 AZN



# Məhsulun hədəf kütləsi



Təbii məhsul axtaran orta və yuxarı gəlirli əhali qrupları

Müxtəlif növ qida məhsullarının istehsalı ilə məşğul olan müəssisələr



Sağlam qidalanma və sağlan həyat tərzi sürən insanlar

Restoran və otel şəbəkələri sahibləri, eləcə də apteklər və ixtisaslaşmış mağazalar

# Məhsulun mümkün satış kanalları – Meyvə püresi



| | |
|---|---|
| BAZARLAR Və YARMARKALAR | • Ənənəvi bazarlarla yanaşı fermerlər üçün təşkil edilən yarmarkalarda və ya sərgilərdə məhsullar alıcılara təqdim edilə bilər |
| SUPERMARKET ŞƏBƏKƏLƏRİ | • Grandmart, Araz, Bravo, Neptun, Bolmart, Rahat, Megastore, Spar, Fresco, Favorit, Bizimmarket, Bazarstore kimi marketlərdə alıcılara təqdim edilə bilər. |
| MAĞAZALAR | • Kiçik və orta ölçülü məhəllə arası mağazalarda və xüsusi quru meyvə mağazalarında alıcılara təqdim edilə bilər. Eləcə də uşaqlar üçün müxtəlif ərzaq məhsulları satan mağazalarda da meyvə pürelərinin satışını təşkil etmək olar. |
| OTEL Və RESTORANLAR | • Böyük şəhərlərdə yerləşən otel və restoranlarda müştərilərə təqdim edilə bilər. |
| ONLAYN SATIŞ | • Sifarişləri şəxsi kuryer və ya “Wolt” və “Bolt Food” kimi çatdılma platformaları vasitəsilə ünvanlara çatdırmaq olar (minimum məbləğ catdırılma limiti kimi tətbiq etməklə). |
| APTEKLƏR | • Uşaqlar üçün istehsal edilən meyvə pürelərinin apteklərdə satışı təşkil edilə bilər. |

# Porterin 5 gücü təhlili – hər iki məhsul üçün

**Bazara giriş təhlükəsi**
Böyük həcmli investisiya lazım olmadığından və istehsal prossesi nisbətən asan olduğundan bazara girmək asandır. Eyni zamanda bu istiqamətdə dövlət dəstəyinin olması da bazara girişi asanlaşdırır.

Yüksək

**Əvəzləmə təhlükəsi**
Bazarda az sayda tam oxşar rəqib olduğu üçün əvəzlənmə təhlükəsi yuxarıdır.

Yüksək

**Bazarda rəqabət**
Bazarda oxşar məhsul istehsal edənlər çox olduğu üçün rəqabət yuxarıdır.

Yüksək

**Alıcıların bazar gücü**
Bazarda informasiya asimmetriyasının olması alıcıların bazar gücünün aşağı olmasına səbəb olur.

Aşağı

**Təchizatçıların bazar gücü**
Bazarda kifayət qədər təchizatçı olduğundan onların bazar gücü zəifdir.

Aşağı



# GZİT təhlillər – hər iki məhsul üçün




## GÜCLÜ TƏRƏFLƏR

- Sadə biznes modelin olması
- Quru meyvə istehsalı üçün ölkədə xammalın olması
- İxtisaslı və bacarıqlı işçi qüvvəsinin mövcudluğu
- İstehsala başlamaq üçün edilən investisiyanın aşağı olması

## ZƏİF TƏRƏFLƏR

- Qonşu ölkələrdən uçuz idxal olunan bəzi meyvə quruları
- Meyvə qurusu məhsulları ilə bağlı bazarda asimmetrik informasiyanın olması
- İxracla bağlı gömrük rüsumlarının əlverişli olmaması

## TƏHLÜKƏLƏR

- Xəstəlik və ziyanvericilərin artması ilə bağlı meyvə istehsalının (xammalın) kəskin azalması
- Bazarda rəqiblərin nisbətən çox olması

## İMKANLAR

- Dövlət dəstəyi tədbirlərinin mövcudluğu
- Alıcıların daxili istehsala üstünlük verməsi
- Qarabağ və Şərqi Zəngəzurun iqtisadi reinteqrasiyası nəticəsində aqrar istehsal və emalın davamlı olaraq artması ilə bağlı perspektivlər
- Ekoloji təmiz meyvə quruları istehsalı
- Xarici ölkələrə yüksək ixrac imkanları



# Aparılmış sorğuların nəticələri

- Aparılmış sorğularda 74 meyvə qurusu və meyvə püresi məhsulları istehsalçıları və satıcıları iştirak etmişdir:
  - Sorğularda iştirak edənlərin 67%-i meyvə emalı ilə məşğul olanlar, 33%-i isə bu məhsulların satışı ilə məşğul olanlar olmuşdur.
  - Sorğuların 62%-i Bakı şəhərində, yerdə qalan 38%-i isə regionda aparılmışdır.
  - Sorğuda iştirak edənlərin 86%-i kişi, 14%-i isə qadın olmuşdur.



# Aparılmış sorğuların nəticələri

- Meyvə qurusu və meyvə püresi istehsalçılarına və satıcılarına görə bu məhsullara olan tələbat son 5 ildə artmışdır (66%) ki, bunu əhalinin gəlirlərinin artması (rəsmi statistik göstəricilərə görə) ilə də izah etmək olar. Eyni zamanda məhsul istehsalının artımı ilə əlaqədar olaraq bəzi məhsullar üzrə qiymətlərdə enmələr müşahidə edilmişdir. Gələcəkdə də bu artımın davam edəcəyi gözlənilir (88%).








# Aparılmış sorğuların nəticələri

- Müştərilər daha çox yerli məhsullara üstünlük verirlər (94%). Bunun da əsas səbəbi kimi keyfiyyətin daha üstün olmasını qeyd edirlər. Müştərilər quru meyvə və meyvə püresi məhsulları alarkən əsasən keyfiyyətə diqqət yetirirlər (66%).








# Aparılmış sorğuların nəticələri

- Müştərilər əsasən qablaşdırılmamış meyvə qurularına üstünlük verirlər (64%, yəni açıq şəkildə təqdim edilən).





# Aparılmış sorğuların nəticələri

- Meyvə püreləri sahəsində isə müştərilər əsasən sadə formada qablaşdırılmış məhsullara üstünlük verirlər (70%).





# Aparılmış sorğuların nəticələri

- Müştərilər əsasən üzüm qurusuna, ərik qurusuna, gavalı quruna üstünlük verirlər.





# Aparılmış sorğuların nəticələri

- Müştərilər əsasən alma püresi, çiyələk püresi, ərik püresi, gavalı pürelərinə üstünlük verirlər.
- Bununla yanaşı, qarışıq pürelərə də tələbat artan templə inkişaf edir.



# Meyvə qurusu və püresi istehsalının dəyər zənciri







# Meyvə qurusu istehsalı üçün lazım olan avadanlıqlar

- Aparılmış təhlillərə əsasən orta ölçülü (günlük 500 kq quru meyvə istehsalı üzrə) meyvə qurutma müəssisəsi yaratmaq üçün aşağıdakı avadanlıqlara ehtiyac vardır:

| Avadanlığın adı | Qiyməti (orta qiymətlərlə, AZN) | Təyinatı | Mənşə ölkəsi |
|---|---|---|---|
| Meyvə qurutma kamerası | 323000 | Meyvə və tərəvəz məhsullarının 45-60 dərəcədə qurudulmasını təmin edir. İstehsal gücü: 8 ton/24 saat | Çin |
| Meyvə yuma xətti | 25500 | Meyvə və tərəvəz məhsullarının azonlaşdırılmış suda yuyulması üçün istifadə edilir. İstehsal gücü: 500 kq/1 saat | Çin |
| Hava qurutma xətti | 35190 | Meyvə və tərəvəz məhsullarının üzərindəki suyun hava ilə təmizlənməsi üçün istifadə edilir. İstehsal gücü: 500 kq/1 saat | Çin |
| Üzüm saplaqdan ayırma, təmizləmə və çeşidləmə xətti | 83300 | Qurudulmuş üzümü saplağından ayırır, çöp və s. tullantıları təmizləyir, 3 ölçüdə çeşidləyir. İstehsal gücü: 1 ton/2 saat | Çin |
| Meyvə soyma xətti | 24310 | Xirnik, şaftalı, alma və s. məhsulların qabığını soyur. İstehsal gücü: 1000 ədəd/1 saat | Çin |
| Meyvə doğrama xətti | 22100 | Meyvə və tərəvəz məhsullarını çips, kub və frii formasında doğrayır. İstehsal gücü: 1 ton/1 saat | Çin |
| Labaratoriya üçün doğrama və qurutma avadanlığı | 25500 | 20 kq məhsulu doğrayıb xırda kamerada sınaqların aparılması üçün istifadə edilən doğrama və qurutma aparatıdır. | Çin |
| Vakuum qablaşdırma | 15300 | Qurudulmuş məhsulların 100 qr - 5 kq-dək vakuum paketlərdə qablaşdırılması üçün istifadə edilir. | Çin |
| Flo pak qablaşdırma | 54400 | Qurudulmuş məhsulların qazlaşdırılmış paketlərdə qablaşdırılması üçün istifadə edilir. | Çin |
| Şoklama kamerası | 49300 | 20 kvadrat kamerada-45 dərəcədə yarım qurudulmuş meyvələrin dondurulması üçün istifadə edilir. | Çin |
| **CƏMİ** | **657900** | | |

# Meyvə qurusu istehsalı üçün lazım olan avadanlıqlar (yuxarıda qeyd edilənlərin bəziləri)





Vakuum qablaşdırma – 15300 AZN (100 qr - 5 kq-dək vakuum paketləmə)



Meyvə qurutma kamerası – 323000 AZN (8 ton/24 saat)




Meyvə soyma xətti – 24310 AZN (1000 ədəd/1 saat)



Meyvə yuma xətti – 25500 AZN (500 kq/1 saat)



# Ümumi tövsiyələr

- Günlük 500 kg meyvə qurusu istehsalı ilə məşğul olmaq üçün tələb edilən investisiyanın həcmi 700 000 – 750 000 AZN arasında dəyişir.
- Sahibkar qoyduğu investisiyanı ən yaxşı ssenaridə 3-4-cü illərdə, ən pis ssenaridə isə 8-10-cu illərdə geri ala bilər.
- Meyvə qurusu istehsalında əsas xərc elementi avadanlıqların alınmasına çəkilən xərclərdir ki, bu da müəssisə yaradılması zamanı ümumi xərclərin təxminən 75-90%-ni təşkil edir.
- Sahibkarlarla görüşlərdən əldə edilən ilkin məlumatlara əsasən 1kg meyvə qurusu istehsalının maya dəyəri 0.6-0.8 AZN təşkil edir ki, bu da istehsal ediləcək meyvə qurusundan asılı olaraq dəyişir.
- Eyni zamanda 1 kg meyvə qurusundan əldə edilən mənfəət marjası da istehsal ediləcək məhsuldan asılı olaraq dəyişir. Sahibkarların verdiyi məlumatlara əsasən 1 kg son məhsulun orta mənfəət marjası 25-40% arasında dəyişir.
- Ümumilikdə isə ilkin analizlər onu deməyə əsas verir ki, daxili tələbin artması fonunda quru meyvə və meyvə püresi bazarının həcmi də artacaq ki, bu da qeyd edilən sahədə effektiv fəaliyyət göstərən sahibkarların və ya yeni sahibkarlıq subyektlərinin rentabelliyini artıracaqdır.



# Ümumi tövsiyələr (ardı)

## SATIŞ NÖQTƏLƏRİ

Məhsulun satışını yuxarıda sadaladığımız kanallar üzərindən təşkil etmək olar. Bazarlar və yarmarkalar, onlayn satış kanalları, supermarket şəbəkələri, kiçik və orta ölçülü məhəllə arası mağazalar satış nöqtələri ola bilər.

## QİYMƏT

Məhsulun maya dəyəri satış qiymətinin təyin olunmasında əsas rol oynamalıdır. Bununla yanaşı, əhalinin alıcılıq qabiliyyəti də nəzərə alınmalıdır. Qiymətqoymada məhsulun keyfiyyəti ilə qiyməti arasında korelyasiya olması önəmli faktordur.



# Ümumi tövsiyələr (ardı)

## MARKETİNQ

Supermarketlərdə, yarmarkalarda, otellərdə, bazarlarda stendlərin quraşdırılması həm malların satılmasını təmin edə bilər, həm də ticarət markasının tanınmasını artıra bilər. Bundan əlavə sosial media üzərindən (məs. facebook, instagram və s.) məhsulun reklamının aparılması fayda gətirə bilər. İnfluenserlər vasitəsilə ticarət markasının tanınmasını daha qısa müddətdə etmək mümkün ola bilər. SMS marketinq və ya elektron poçt vasitəsilə marketinq təşkil etmək məhsulun tanıdılması üçün istifadə oluna bilər.

## ÇATDIRILMA

İnternet üzərindən çatdırılmanı optimallaşdırmaq məqsədilə çatdırılma üçün minimum sifariş limitinin tətbiq edilməsi tövsiyə olunur. Pandemiyanın yayılması ilə onlayn çatdırılma xidmətlərinə tələbat da artmışdır. Çatdırılma xidməti şəxsi kuryerlər və ya “Wolt”, “BoltFood” kimi çatdırılma platformaları vasitəsilə həyata keçirilə bilər.



# Ümumi tövsiyələr (ardı)

## MƏHSULUN NÖVÜ

Gələcəkdə orqanik sertifikatlı quru meyvə və meyvə püresi məhsullarına tələbatın artacağını deyə bilərik. Bunu nəzərə alaraq demək olar ki, müxtəlif quru meyvə və meyvə püresi məhsulları üzrə orqanik məhsul istehsal etmək daxili bazarda mövqelənməni daha da möhkəmləndirə bilər.

## İSTEHSALIN GENİŞLƏNDİRİLMƏSİ

İşğaldan azad olunmuş ərazilərdə bağçılıq təsərrüfatlarının yaradılması gözlənilir ki, bu da xammal bazasını artıracaqdır və eyni zamanda qiymətlərə də təsirsiz ötüşməyəcəkdir. İstehsalın planlaşdırılmasında məhz bu amilin nəzərə alınması məqsədəuyğun sayılır.



Diqqətiniz üçün təşəkkürlər !